*Nizamişünaslıq 12, №1, 2025, səh. 102-105*

https://doi.org/10.59849/3006-2403.2025.1.102

***Cavid BAĞIRZADƏ***
***Tarix üzrə fəlsəfə doktoru, dosent***
***Gəncə Dövlət Universiteti***
***E-mail: cavid.bagirzade@gdu.edu.az***

# NİZAMİ GƏNCƏVİNİ YETİŞDİRƏN ŞƏHƏR-GƏNCƏ AZƏRBAYCAN İNTİBAH MƏDƏNİYYƏTİNİN MÜHÜM MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

*Açar sözlər:* Gəncə, Azərbaycan İntibah mədəniyyəti, orta əsrlər, Şeyx Nizami Gəncəvi, Səlcuqlar, Şədadilər

XI-XIII əsrlərdə Azərbaycanda mövcud siyasi vəziyyət, iqtisadi yüksəliş bu dövrdə mədəniyyətin daha da inkişaf etməsini şərtləndirmişdir. Təsadüfi deyildir ki, bu dövr intibah dövrü, intibah mədəniyyəti kimi xarakterizə olunmuşdur. Azərbaycanda müstəqil feodal dövlətlərin yüksəlişi, feodalizmin inkişaf etməsi, eləcə də Azərbaycanın Səlcuqlar dövlətinin hakimiyyəti altına düşməsi ilə siyasi pərakəndəliyin aradan qalxması nəticəsində ölkədə mədəniyyətin inkişaf etməsinə, elm və təhsilin inkişaf etməsinə gətirib çıxarmışdır. İntibah mədəniyyəti özündən əvvəlki dövrlərdən formalaşmış mövcud mədəniyyətin əsasında yaranmış, tarixi ənənələr üzərində bərqərar olmuşdur. Digər tərəfdən də mövcud dövlətlərin – Şirvanşahlar, Rəvvadilər və Şəddadilərin, daha sonra Səlcuqların, ondan sonra isə Atabəy Eldənizlərin mədəniyyətə, elm və təhsilə qayğıları, himayə etmələri nəticəsində bəhs olunan dövrdə formalaşmış mədəniyyət məhz intibah dövrü mədəniyyəti adlandırılmışdır. Monqolların dağıdıcı yürüşləri nəticəsində Azərbaycan şəhərlərinin məruz qaldığı dağıntılar mədəniyyətin də vəziyyətinə ciddi təsir etmiş, tənəzzül yaşanmışdır. Azərbaycan intibah mədəniyyətinin mühüm mərkəzlərindən biri də məhz Gəncə şəhəri olmuşdur. X əsrdən etibarən Arranın başlıca siyasi-inzibati, iqtisadi mərkəzi olmaqla yanaşı, Gəncə həm də mühüm elm, təhsil, mədəniyyət mərkəzi olmuşdur.

Gəncə adına mənbələrdə həm də burada yaşamış, burada anadan olmuş və burada yetişmiş çoxsaylı alimin vətəni kimi də rast gəlinməkdədir. Gəncə Səlcuqlar dövründə mühüm elm və təhsil mərkəzi kimi rol oynamış, bura həm də sufiliyin mühüm mərkəzlərindən biri olmuşdur. Burada yerli sufi alimlər fəaliyyət göstərmişdir. Arran bölgəsinin alimləri arasında Qazı Tahir əl-Cənzi (Tahir Gəncəli) xüsusi qeyd edilir. Öz şəhərinin əyanlarından olan qazı Tahir əl-Cənzi fiqh və ədəb elmində fəzilətli olmuşdur [3, s. 174]. Bu dövrdə Gəncədə zəngin kitabxananın, təhsil müəssisələrinin olması məlumdur.

X əsrdən başlayaraq ərəb müəllifləri Gəncə haqqında Arranın "böyüklükdə bir-birinə bənzəyən, münbit torpaqlı, hər şeyi bol olan kiçik şəhərləri"ndən biri kimi bəhs edirlər. Rusların 943-cü ildə Arranın mərkəzi olan Bərdəyə hücumu və şəhərin dağıdılaraq tənəzzülə uğramasından sonra, X əsrin ikinci yarısından etibarən Gəncənin Arranın əsas şəhərinə çevrilməsi prosesi başlayır və Gəncənin tədricən yüksəlməsi, həmin dövrdə Salarilər dövlətinin tərkibində olan Gəncənin 971-ci ildən "Arranşahi" ləqəbini qəbul etmiş Şəddadilərin yaratdıqları dövlətin əsas şəhərinə çevrilməsi ilə bağlıdır. Şəddadilər dövründə yüksək inkişaf dövrünü keçirən Gəncə, Səlcuq sultanlarının valilərinin iqamətgahına çevrildikdən sonra da öz əhəmiyyətini və qüdrətini saxlaya bilmişdi [4, s. 158-159]. Gəncənin yüksəlişi və sonrakı mərhələdə mühüm dini, siyasi-inzibati, iqtisadi-ticarət, elm, təhsil və mədəniyyət mərkəzinə çevrilməsi prosesi Şəddadilər dövründə baş vermişdir. Diqqəti cəlb edən məqam ondan ibarətdir ki, ilk orta əsrlər dövrünə dair yazılı mənbələrdə Gəncənin adına

çox da rast gəlinməsə də, artıq Ərəb xilafəti dövründən etibarən şəhərin müxtəlif tarixi hadisələrlə bağlı adı xatırlanmağa başlanılmışdır.

Şəddadilərin paytaxtı olduğu dövrdə Gəncədə çoxlu saray, istehkam, körpü və karvansaralar tikilmişdir. XI əsrin birinci yarısında Arran ruhaniləri dini idarəni – Alban katolikosluğunu da V əsrdən tarixi iqamətgahının yerləşdiyi Bərdədən Gəncəyə köçürmüşdülər. Gəncə həm inzibati, həm də dini paytaxt olur. Şəddadi hökmdarları I Fəzl (978–1031) və Şavurun (1048–1067) dövründə Gəncə sürətlə inkişaf etmişdir. Gəncə X əsrə nisbətən artıq XI əsrdə iki dəfə böyümüşdür [2, s. 10-11]. Şəddadilərin hakimiyyətinə son qoyulduqdan sonra da Gəncə özünün mühüm mərkəz, o cümlədən də inzibati mərkəz rolunu saxlayırdı. Belə ki, Səlcuq sultanlarının təyin etdikləri hakimlərin iqamətgahları burada yerləşirdi. Səlcuq sultanı Məlikşah oğlu Qiyasəddin Məhəmmədi Gəncəyə hakim təyin etmişdi. Qiyasəddin Məhəmməd böyük qardaşı, Səlcuq sultanı Böyükyarığa qarşı çıxıb onu öldürdükdən sonra Gəncədə öz sarayında sultanlıq taxtı təsis edərək Səlcuq sultanlığını buradan idarə etmişdir. Gəncədə sultanlıq taxtı 1104-cü ildən 1131-ci illədək mövcud olmuşdur. Bütün bunlar bəhs olunan dövrdə Gəncənin şəhər kimi əhəmiyyətini bir daha xarakterizə edir.

XII-XIII əsrlər dövrünün görkəmli alimlərindən biri, Dəməşq qazisi olmuş Əbülfəzl İsmayıl ibn Əli ibn İbrahim Gəncəvi, məşhur din xadimi Ömər ibn Osman ibn Şuayb Gəncəvi, Tacəddin Əhməd ibn Katib, filosof və astronom İvan Sarkavaq, tarixçi Kirakos Gəncəli, Vardan, Mxitar Qoş Gəncə şəhərinin yetişdirmələri idi. Bu dövrdə Gəncə kitabxanası bütün Şərqdə məşhur idi [2, s. 21]. Gəncəni "Arranın ən böyük şəhəri" adlandıran Yaqut əl-Həməvi bu şəhərdən çıxmış elm xadimlərinin arasında yuxarıda göstərdiklərimizlə yanaşı, Əhməd ibn İbrahim əl-Cənzi Əbu Məsudun, Yəzid ibn Əmr ibn Cənzə əl-Cənzinin adlarını çəkir, əslən gəncəli olan bu elm və din xadimlərinin müsəlman aləminin mədəni mərkəzləri olan Bağdad, Qahirə, İsfahan, Buxara və başqa şəhərlərində elmi və dini təhsil almaları haqqında məlumat verir [4, s. 160].

Gəncə bəhs olunan dövrdə mühüm elm və təhsil mərkəzi olması ilə seçilmişdir. Əbu Tahir əs-Siləfin "Müccəm əs-səfər" əsərində Gəncə və onun Nizamiyyə mədrəsəsi haqqında məlumat verilir. Gəncədəki mədrəsədə qazı Əbu Abdulla ibn Əli ibn Məhəmməd ət-Təbəri kimi müdərris fəaliyyət göstərmişdir. Əbu Abdulla ət-Təbəri həmin mədrəsədəki tədrisə rəhbərlik edərkən yaxşı işləmiş, onun idarəçilik qabiliyyəti daha da artmışdı. Əbu Abdulla Gəncədə Nizammülkün onun atası üçün tikdirdiyi mədrəsədə müdərris vəzifəsində çalışmışdır [3, s. 320-321]. Bu dövrdə Gəncədən olan alimlər də Yaxın və Orta Şərq şəhərlərində, o cümlədən də Bağdad və Dəməşqdə fəaliyyət göstərirdilər.

Elm və təhsilin mühüm göstəricilərindən, eləcə də şəhərin mədəni mühitinin səviyyəsini göstərən fakt zəngin kitabxananın olmasıdır. Mənbələrdə ən azından XI əsrdən Gəncədə zəngin kitabxananın olması haqqında məlumat vardır. Gəncə Azərbaycan mədəniyyət mərkəzlərindən biri idi. Gəncə dünya ədəbiyyatı xəzinəsinə Əbülüla Gəncəvi, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Qivami Mütərrizi və adları dövrümüzə gəlib çıxmamış onlarla böyük şəxsiyyətlər bəxş etmişdir.

X əsr ərəb müəllifi İbn Havqəl digər Azərbaycan şəhərləri ilə müqayisədə Gəncəni "mühüm şəhər" kimi xüsusi olaraq xarakterizə etmişdir [5, 1974, s. 114]. XII-XIII əsrin əvvəllərində Gəncə şəhəri elm, təhsil, incəsənət mərkəzi olmuşdur. Azərbaycan Atabəyləri, xüsusilə Cahan Pəhləvan və Qızıl Arslan şairlərə, musiqişünaslara, mühəndis, memar və inşaatçılara, həkim və elm nümayəndələrinə hamilik edirdilər. Hələ XI əsrdə Səlcuqlu sultanı Məlikşahın vəziri Nizamülmülkün Bağdadda təsis etdiyi "Nizamiyyə" mədrəsəsində təhsil almaq üçün Gəncədən xeyli gənc getmiş, mükəmməl təhsil və bilik aldıqdan sonra yenidən doğma Gəncəyə qayıtmışdılar [2, s. 21]. Beləliklə, daha əvvəlki tarixi ənənələr davam etdirilməklə, XI əsrdən etibarən Gəncə mühüm elm və təhsil mərkəzinə çevrilir. Təsadüfi

deyildir ki, Azərbaycan intibah mədəniyyətinin ən mühüm mərkəzlərindən biri də məhz Gəncə şəhəri olmuşdur.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (7 cilddə), V cild, Bakı, Elm, 2008, 696 s.+40 illüstrasiya.
2. Gəncə (tarixi oçerk). Bakı, Elm, 1994, 152 s.
3. Əliyeva N.A. Azərbaycanda islam mədəniyyəti (VII-XIII əsrlər), Bakı, "Elm və təhsil", 2017, 488 s.
4. Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, "Elm və təhsil", 2016, 480 s.
5. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrsfiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, "Elm", 1974, 224 s.

***Джавид БАГИРЗАДЕ***
***Доктор философии по истории, доцент***

**ГОРОД ГЯНДЖА, ВОСПИТАВШИЙ НИЗАМИ ГЯНДЖЕВИ, КАК ОДИН ИЗ ВАЖНЫХ ЦЕНТРОВ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ ВОЗРОЖДЕНИЯ**
***РЕЗЮМЕ***

Ключевые слова: Гянджа, культура, Азербайджанского Возрождения, Средневековье, Шейх Низами Гянджеви, Сельджуки, Шададиты

Политическая ситуация и экономический рост в Азербайджане в XI-XIII веках обусловили дальнейшее развитие культуры в этот период. Неслучайно этот период характеризуют как эпоху Возрождения, культуру Возрождения. Возникновение в Азербайджане независимых феодальных государств, развитие феодализма, а также ликвидация политической раздробленности с попаданием Азербайджана под власть Сельджукского государства привели к развитию культуры, науки и образования в стране. Культура эпохи Возрождения формировалась на основе уже существующей культуры, сформированной в предыдущие периоды, и основывалась на исторических традициях. С другой стороны, культура, которая сформировалась в указанный период в результате заботы и покровительства существовавших государств — Ширваншахов, Раввадидов и Шаддадидов, затем Сельджуков, а затем Атабеков Эльданизов — о культуре, науке и образовании, получила название культуры Возрождения. Разрушения, нанесенные азербайджанским городам в результате разрушительных походов монголов, серьезно отразились на состоянии культуры, приведя ее в упадок. Одним из важных центров культуры азербайджанского Возрождения был город Гянджа. Начиная с X века Гянджа, помимо того, что была главным политическим, административным и экономическим центром Аррана, также была важным центром науки, образования и культуры.

***Javid BAGHIRZADE***
***PhD in history, associate professor***

**GANJA, THE CITY THAT RAISED NIZAMI GANJAVI- AS ONE OF THE IMPORTANT CENTERS OF AZERBAIJAN RENAISSANCE CULTURE**

***SUMMARY***

*Key words:* Ganja, Azerbaijani Renaissance culture, Middle Ages, Sheikh Nizami Ganjavi, Seljuks, Shadadis

The political situation and economic growth in Azerbaijan in the 11th-13th centuries led to the further development of culture during this period. It is no coincidence that this period has been characterized as the Renaissance, the Renaissance culture. The rise of independent feudal states in Azerbaijan, the development of feudalism, as well as the elimination of political fragmentation with the fall of Azerbaijan under the rule of the Seljuk state, led to the development of culture, science, and education in the country. Renaissance culture was founded on the existing culture formed from previous periods and was established on historical traditions. On the other hand, the culture that was formed in the mentioned period as a result of the care and patronage of the existing states, the Shirvanshahs, Ravvadis and Shaddadis, then the Seljuks, and then the Atabey Eldanizs, for culture, science and education, was called the culture of the Renaissance. The devastation inflicted on Azerbaijani cities as a result of the Mongols' destructive campaigns seriously affected the state of culture, caused it to decline. One of the important centers of Azerbaijani Renaissance culture was the city of Ganja. Since the 10th century, Ganja, in addition to being the main political, administrative, and economic center of Arran, has also been an important center of science, education, and culture.

***Daxil oldu: 04.05.2025-ci il***